# MİR CƏLAL PAŞAYEVİN



# EV-MUZEYİ ZİYARƏT OLUNUB

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məktəblilərlə birgə Mir Cəlal Paşayevin ev-muzeyini ziyarət edib. Muzeyin direktoru İradə Paşayeva görkəmli yazıçı, şair, dramaturq, tənqidçi, tərcüməçi və ədəbiyyatşünas M.C.Paşayevin həyat və yaradıcılığından ətraflı məlumat verərək bildirib ki, Əməkdar elm xadimi Mir Cəlal Paşayevin ev-muzeyinin rəsmi açılışı 2007-ci il sentyabr ayının 29-da baş tutmuşdur.

2009-cu ilin aprel ayında muzeydə Elmi-Ədəbi Tədqiqat Şöbəsi fəaliyyətə başlamışdır. Muzey eksponatlarının sayı 300-dən artıqdır. Ev-muzeyinə ədibin pasportu, orden və medalları hədiyyə edilib. Mir Cəlal Paşayevin uşaqlıq, gənclik və tələbəlik illəri, pedaqoji və ədəbi fəaliyyəti, onun ailə üzvləri, davamçıları muzeyin ekspozisiyasında öz əksini tapmışdır. Həmçinin, buraya ədibin şəxsi əşyaları, ona həsr edilmiş incəsənət nümunələri, öz əsərləri, muzeyə hədiyyə edilmiş kitablar, qəzet məqalələri, disklər və çoxlu sayda ailə şəkilləri də daxildir. Şəxsi əşyalar kolleksiyasına ədibin orden və medalları, döş nişanları, ailəsinə yazdığı məktublar, Mir Cəlala həsr edilmiş incəsənət nümunələri, onun yağlı boya ilə işlənmiş portretləri, büstləri, xalça üzərində əl ilə toxunmuş portretləri, tablolar və başqa eksponatlar daxildir. Eyni zamanda, muzeydə ədibin Azərbaycan, rus, gürcü, ingilis, qırğız, ispan dillərində çap olunmuş seçilmiş əsərləri, həm də hekayələri, romanları, povest və dərslikləri vardır. Muzeyə hədiyyə edilən kitablar sırasına isə Nəriman Həsənzadə, Elçin Əfəndiyev, Hidayət Orucov, Xalid Əlimirzəyev, Pənah Gülxani, Həcər Hüseynova, İlham Rəhimli, Dildar Vəkilova, Abbas Səmədov və digər müəlliflərin ədib haqqında elmi, bədii əsərləri, araşdırmaları, xatirəesseləri daxildir. Həmçinin, bu kitablar arasında ədibin biblioqrafiyası, "Qabusnamə", professor Yusif Seyidovun, Xalq şairi Səməd Vurğunun, professor Hafiz Paşayevin əsərləri də yer alıb.

Niyazi Bayramov muzeydə fəaliyyət göstərən Azərbaycan Yazıçılar Birliyinin Gəncə bölməsinin sədri Xəzangül Hüseynova ilə görüşmüş və qeyd etmişdir ki, Gəncə Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Mirzə Şəfi Vazeh və digər görkəmli yazıçıları ilə seçilib. Xəzangül Hüseynova göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və şəhər rəhbərinə öz minnətdarlığını bildirib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**